# Anar: Ədəbiyyat olmasa, dil də olmayacaq

əvvəli ötən sayımızda

**- Deputatların dilini-ağzını bağlamaq məsələsi deyiləndə, lap M.F.Axundzadə yada düşür, yenə aktualdı. Çətin 90-cı illərdən danışdınız. O zaman bir ruh düşkünlüyü yaranırdı: yəni xalqın yazıçısı və onun millətinin başına gətirilmiş faciələr. Amma, eyni zamanda da, ayaqda olmalısan, hətta bu dediyiniz məişət məsələlərini də həll eləməlisən. Yazıçı kimi bunun öhdəsindən necə gəlirdiniz?**

- Nə deyim, vallah. Allaha inanıram, ona görə də Allahın köməkliyiylə öhdəsindən gəlirdim. Azərbaycanda o vaxt dərəbəylik idi. Mən heç kəsin arxasınca danışmaq istəmirəm, amma göz qabağındaydı da hər şey. O hadisələrin nəticəsində biz 8 rayonu itirdik, iyirmi faiz torpaqlarımız işğal olundu və Şuşa kimi alınmaz qala əldən getdi. İndi deyirlər ki, onda demokratiya var idi. Görünür, elə demokratiya zərərli imiş Azərbaycana. Ancaq Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bütün bunlar yavaş-yavaş çözüldü. Heydər Əliyev rəhmətliyin ömrü çatmadı ki, Qarabağın azad olunmasını görsün. Bunu da onun oğlu elədi və dedi ki, ata vəsiyyətini yerinə yetirdim. Sanki bir möcüzə baş verdi, mən həmişə bunu deyirəm. Mən bilirdim ki, Qarabağ gec-tez azad olunacaq. Amma bilmirdim ki, onu görə biləcəyəm, yoxsa, yox. Və görməyimə görə çox xoşbəxtəm. Şuşaya beşinci-altıncı dəfədir gedirəm.

**- Bəli, növbəti dəfə "Xarı Bülbül" festivalında iştirak etdiniz. 1991-ci ildə, Azərbaycanın müstəqillik aktı hələ qəbul olunmamışdan da əvvəl, iyun ayında Yazıçılar Birliyinin müstəqillik illərində ilk qurultayı oldu və o qurultay, hətta bir film ssenarisinə çevrilə biləcək səviyyədə maraqlı hadisələrlə doluydu. Heydər Əliyevi də dəvət etmişdiniz həmin qurultaya.**

- Deməli, o qurultayda Sabir Rüstəmxanlı məruzə elədi, siyasi vəziyyət haqqında. Siyasi məruzəydi o vaxt, çünki o, müxalifətdəydi o zaman. Sonra İsa Qəmbər çıxış elədi. Düzdür, onun çıxışı yazıçılara tövsiyə xarakterliydi, amma hər halda çıxış elədi. Əsas odur ki, Heydər Əliyevi biz dəvət elədik. Partiya funksionerləri bir az təəccüblü qalmışdı ki, birdən o, çıxış eləyər. Dedim, yox, çıxış etməyəcək, amma onu dəvət eləmək bizim borcumuzdur. Çünki indiyə qədər bizim bütün qurultaylarımızda iştirak edib. Beləliklə, biz dəvət elədik, sağ olsun, o da dəvətimizi qəbul edib gəldi. Bu, IX qurultayda idi. Ən qəribəsi də odur ki, orda çıxış edənlərin hamısı deyirdi ki, biz SSRİ-dən çıxmalıyıq, SSRİ Yazıçılar Birliyindən də çıxmalıyıq. Biz də razılaşırdıq, deyirdik, çox yaxşı. Amma sonra Moskvada qurultay olmalıydı, axı o vaxt, bu qurultaya nümayəndə seçiləndə bir dava qalxdı ki, gəl, görəsən. Bəs mən niyə yoxam orda? Deyirdik, bəs deyirdiniz əlaqəni kəsək? İndi niyə "o, var, niyə mən yoxam" davası edirsiz?

**- Bilirsiniz, sizin hansı əsəriniz yadıma düşdü? "İlin fəsilləri və yaxud qovluğun içindəkilər"...**

- Kim ki, seçilmədi, başladı ki, yox, niyə mən seçilmədim? Sonra nə qurultay oldu, nə də biz getmədik qurultaya. Moskvada "Literaturnaya qazeta"da məqalə çıxmışdı ki, bəziləri gəldilər, bəziləri gəlmədilər. Azərbaycan yazıçıları isə ümumiyyətlə iqnor etdilər, gəlmirik də demədilər, ümumiyyətlə isə gəlmədilər. Ondan bir il sonra da İttifaq dağıldı.

**- Anar müəllim, o illərə nəzər salanda, hətta dərgilərin tarixçəsinə baxanda görürük ki, o çətin 90-cı illərdə elə vaxtlar olub ki, dərgilərimiz ildə bir nömrə ilə çıxa biliblər. Elə illər də olub ki, heç çıxa bilməyiblər. Çıxan dərgilər də sizin şəxsi nüfuzunuz, əlaqələriniz hesabına işıq üzü görürdü. O dövrdə dərgilərin çıxmaması çox böyük bir problem idi və siz özünüz də onu dəfələrlə demisiniz ki, məhz Heydər Əliyevin sayəsində dərgilər, eləcə də Yazıçılar Birliyi dövlət büdcəsinə salındı. Heydər Əliyevin yazıçılara və Yazıçılar Birliyinə münasibətindən, 91-ci ildəki qurultayda iştirakından danışdınız. 6 ildən sonra, 97-ci ildə də o, artıq ölkə prezidenti kimi gəlib qurultayda iştirak elədi və bütün o sovet dövründəki maraqlı faktları da dilə gətirdi. Necə qurulmuşdu Heydər Əliyevlə Yazıçılar Birliyinin münasibətləri?**

- Açığı, mən heç bilmirəm başqa bir dövlət xadimi varmı ki, bu qədər ədəbiyyata marağı olsun, bu qədər ədəbiyyatla yaşasın, bu qədər ədəbiyyata yaxın olsun. Təbii ki, dövlət başçıları siyasət naminə gərək, məsələn, din adamlarıyla da, yazıçılarla da dil tapsınlar. Ulu Öndərin isə yazıçılara münasibəti ürəkdən gəlirdi. Çünki cavanlıqdan teatrla bağlı olub, cavanlıqdan Azərbaycan ədəbiyyatını oxuyub, dərin mütaliəsi olub.

**- Hətta səhnədə aktyor kimi də təcrübəsi olmuşdu.**

- Bəli, aktyor kimi də çıxış edib. Həm də çox oxuyub, əksər yazıçıların əsərlərini mütaliə etmişdi. Hamısını bilirdi, tanıyırdı. Bilirdi ki, yazıçılar nüfuzlu adamlardı, söz deyə bilərlər, camaata təsir edə bilərlər. Siyasətçi kimi də bunu bilirdi, amma siyasətçidən də çox, insan kimi Yazıçılar Birliyinə bağlı idi. Və təbii ki, o, ikinci dəfə hakimiyyətə gələndə birinci görüşündə elə ən çox mən danışdım orda. Hətta dedi ki, sən məruzə elədin burda, çıxış eləmədin. Çox prinsipial məsələlər vardı. Hələ prezident seçilməmişdi, birinci görüşü akademiyanın binasında ziyalılarla oldu. Elə orda dedim o büdcə məsələsini, filan... Dərhal, hakimiyyətə gələn kimi Yazıçılar Birliyinin özünü də, dörd jurnalı və bir qəzeti də büdcəyə daxil elədi. Bununla da Birliyi xilas elədi. Mən sözgəlişi demirəm. Deyirəm ki, bizim jurnallar olmasa, ədəbiyyat olmayacaq. Çünki elə bir dövrdə yaşayırıq ki, kimin pulu var, gedib kitabını çap elətdirə bilər. Baxaq, görək o, yazıçıdırmı? Düzdür, onların da arasında yazıçılar var. Ancaq bu da var ki, hər pullu adam gedib öz cızmaqarasını çap elətdirə bilər. Amma yazıçılar jurnallarda, qəzetlərdə ədəbi meyarlarla çap olunur, ədəbi meyarlar orda qorunur. Ona görə də Yazıçılar Birliyi olmasa, onun ədəbi orqanları olmasa, ədəbiyyat da olmayacaq. Ədəbiyyat olmasa, dil də olmayacaq. Çünki dili əsasən, ədəbiyyat yaşadır. İndi deyirlər ki, Yazıçılar Birliyi lazım deyil, özü də bu söhbətlərin arxasında bilirsən, nə durur? Mən sənə açığını deyirəm, o binanı ələ keçirtmək istəyirlər. Şəhərin yaxşı yerindədir axı... Lap Yazıçılar Birliyi təşkilat kimi qalsa da, bəzilərinin imkanları olsa, deyərlər ki, gedin, Badamdarda iki otaq verək və yaxud Dərnəgüldə, filan. Burda isə biz mehmanxana, dükan, ya bank düzəldəcəyik.

**- Çox maraqlı bir məqama gəlib çatdıq, mən onu dəfələrlə sizdən soruşmaq istəmişəm. Bəlkə, elə fürsət indidir. İndi "Qobustan" dərgisində də ən müxtəlif peşə sahiblərinin, yəni öz sənətində söz sahibi olan müxtəlif insanların sizə təbrikləri yayımlanıb. Və o təbriklərin böyük əksəriyyətində əsas vurğu bunun üzərindədi ki, Anar müəllim Yazıçılar Birliyini qorudu, saxladı. Mən istəyirəm ki, bunun bir özəyini, əsasını deyəsiniz. Nədən ibarət idi Yazıçılar Birliyini qoruyub saxlamaq?**

- Yazıçılar İttifaqını qorumaq ondan ibarət idi ki, ona qarşı təhlükə vardı. Mən yenə deyirəm ki, Heydər Əliyev hakimiyyətə gələndən və İlham Əliyev prezident olandan sonra, artıq Yazıçılar Birliyinə qarşı elə bir təhlükə yoxdu. Düzdür, yenə də danışırlar ki, nəyə lazımdı, filan. Onlar hamısı boş söhbətdi... Amma onlar hakimiyyətə gələnə qədər bu, real ola bilərdi. Bəzi idarələrə avtomatla girirdilər ki, sən çıx get burdan! Hətta indi bir yazıçımız rəhmətliyin xatirələri var, orda deyir ki, məni devirmək istəyənlər deyirlərmiş ki, avtomatla gəlib Anarı devirəcəyik. Gəlmədilər, avtomatla, ona cəsarət eləmədilər. Amma belə bir fikirləri vardı.

**- Avtomatla üstünüzə gəlmək istəyənlər bir də ermənilər idi?**

- Ermənilər yazırdılar ki, Anarı öldürəcəyik. Amma pisi odur ki, bizimkilərin bəziləri, necə deyərlər, onlarla səs-səsə verirlər. Bilavasitə əlaqələri olmasa da, ruhən yaxındılar bir-birinə. Yəni Yazıçılar Birliyinə olan nifrətdə yaxındırlar. Bax, o dövrdə Yazıçılar Birliyi doğrudan da, ləğv oluna bilərdi, hələ o sovet vaxtlarıydı, müstəqillik təzə-təzə yaranırdı. Yox, heç sovet vaxtı da deyildi... Artıq müstəqil idik. Çünki səfirlik vaxtı idi... Bakının bir meri ingilis səfirini gətirmişdi Yazıçılar Birliyinə. Düzdü, o vaxt mən orda olmamışam, mən ya Bakıda deyildim, ya da o gün işdə deyildim. İngilis səfirini gətirib ki, bəyənirsiz buranı? Deyirdilər, buranı biz səfirliyə verəcəyik. Sonra Yusiflə mən İsa Qəmbərin vaxtında sərt şəkildə, qəti etiraz elədik. Dedilər, yox, elə bir fikrimiz yoxdu. Yəni belə şeylər də vardı. Əsas dediyim kimi, gözlərini binaya dikmişdilər ədəbiyyatdan kənar olan adamlar. Ədəbiyyatın içində olan adamlar isə, təbii ki, vəzifə davası edirdilər. "Niyə mən olmayım?" davası...

**- Bəs, bunlar sizə mövzu verdimi? Ümumiyyətlə, Yazıçılar Birliyindəki bütün bu fəaliyyətiniz sizə bədii əsərlər üçün mövzu verdimi?**

- Mənim bir yaxşı tədqiqatçım var: Pərvin xanım! O bilir ki, mənim bu mövzuda bir çox əsərim var. (gülür)

**- Məsələn, birini indi siz danışanda mən dedim ki, "İlin fəsilləri, yaxud, qovluğun içindəkilər" əsərinizin əsas qəhrəmanları elə o dağılmış Sovet İttifaqının insanlarıdır. Sonra "Yay gecəsinin röyası" əsərindəki xarakterlər... Amma burda bir kədərli tarixçə də var. Qarabağdan məcburi köçkün düşənlərin yanınıza gəlmələri və o dəhşətli hadisələr, Xocalı faciəsini danışmaqları ki, onlar da sizin əsərlərinizdə öz əksini tapıb. Bir müsahibəniz də yadımdadır: 50 illiyinizdə müsahibə vermişdiniz və demişdiniz ki, məni bədii yaradıcılığımdan ayrı salıb bu sədr vəzifəsi. İndi necə fikirləşirsiniz ötən illərə baxanda?**

- Müəyyən mənada yenə də elədir. Çünki mən bu işə o qədər vaxt sərf eləyirəm ki, yaradıcılığa ayırmalı vaxtım az qalır. Amma sən mənim yaradıcılığıma yaxşı bələdsən. Bilirsən ki, mən yazıram, yenə də yazıram, həm də müxtəlif janrlarda yazıram. Bədii əsərlər də, publisist əsərlər də qələmə alıram. Düzdü, son illər daha çox publisist əsərlər yazıram, amma yenə də son illərdə pyeslərim, ssenarilərim, nəsr əsərlərim də var. Yəni heç bir zaman bədii ədəbiyyatdan ayrılmamışam.

**- Böyük qələbəmizdən, 44 günlük zəfərimizdən sonrakı dövr iki böyük kitab çap olundu, Heydər Əliyevin yüz illiyinə "Əbədi ömrün yüz ili", bir də zəfərə həsr olunmuş "Qarabağ dastanı - 30 ilin həsrəti, 44 günün zəfəri". Bu kitabın bilavasitə ideya müəllifi də, onun toplayanı da, müəyyən konsepsiyasını quran da siz oldunuz. Bu cür kitabların əhəmiyyəti nədir, Anar müəllim? Ümumiyyətlə, necə yazılmalıdır zəfərimiz?**

- İndiki dövrdə bəzən tələb edirlər ki, zəfərimiz haqqında gərək böyük romanlar çıxsın, geniş həcmli poemalar yazılsın... Bunlar da olacaq, amma bir az sonra olacaq. Amma indi, xüsusilə, mən üzümü cavanlara tutub deyirəm, indi faktologiya lazımdı. Hələ ki, Allah onlara ömür versin, qazilərimiz, müharibə iştirakçılarımız sağdı, özü də çoxu cavandı. Hələ onlar uzun illər yaşayacaqlar. Amma sonralar yaddaş bir az korşala bilər. On ildən sonra hadisələri ayrı cür xatırlayacaqlar. Amma indi, isti-isti bu adamlarla, bu qaçqınlarla ki, nə şəraitdə qaçıblar, görüşlər keçirmək, bunların dilindən yazmaq lazımdı. Ermənilər yalan-gerçək, hər şeyi faktlaşdırırlar. Biz bu işdə geri qalırıq. Ona görə, məsələn, bədii film bəlkə gələcəkdə çəkiləcək, amma indi sənədli filmlər çəkilməlidi. O kadrlar ki, hələ durur, rəhmətlik Çingiz Mustafayevin çəkdiyi kadrlar, başqa kadrlar, filan... Bunları toplayıb xüsusilə, film vasitəsilə dünyaya daha asan çatdırmaq olar. Məsələn, Leninqrad blokadası haqqında çox illər sonra yazıldı, amma çox illər sonra yazıldığı üçün nə qədər əziyyət çəkdilər. Gedib o adamları tapmaq, axtarmaq ki, kim qalıb o dövrdən... Vaxtında bunu eləsəydilər, daha da təsirli ola bilərdi.

**- Siz janr olaraq kinonu dediniz, Anar müəllim. Kino daha tez dünyaya çıxmaq üçün bir üsuldu, daha tez tanına bilən janrdı. Bəs yazılı mətn olaraq, sizcə, hansı janrda daha çox yazılmalıdı əsərlər?**

- Məncə, publisist janrda. Oçerklər, esselər, faktiki şeylər, sənədli əsərlər. Bax, bunlar daha vacibdi. Bunlara daha çox inanıram mən. Doğrudur, bədii təxəyyül də olmalıdır, əsərlərdə, poemalarda, şeirlərdə, filan. Amma ilk etapda mənə elə gəlir ki, sənədli əsərlərin əhəmiyyəti daha böyükdü.

**- Elə Yazıçılar Birliyinin nəşri olan "Qarabağ dastanı" kitabı xeyli dərəcədə bir salnamə oldu...**

- Mən orda dedim ki, işğal olunmuş rayonlardan olan yazıçılar hərəsi öz rayonundan yazsın, çünki o yerləri daha yaxşı bilirlər. Təxminən elə ona əməl elədik, kitab elə tərtib olunub. Təbii ki, mən qarabağlı deyiləm, amma mənim də Şuşa haqqında yazılarım var orda.

**- Sizin 80-ci illərdə yazdığınız "Qarabağ şikəstəsi" əslində irihəcmli bir esse idi. Yəni ona publisistik məqalə də demək olmaz, yarı bədii, yarı sənədli bir yol qeydləri kimi idi. Amma o illərdə artıq bir təhlükə var idi və bu sizin üsyanınız idi.**

- Mən bu şeyi dedim, 23 saatlıq antiterror əməliyyatından sonra mənim birinci reaksiyam bu oldu ki, 44 günlük müharibədə biz 30 il işğal altında olan rayonlarımızı xilas elədik, amma 23 saatlıq antiterror əməliyyatında 200 ilin problemini həll elədik. Daha doğrusu, prezidentimiz həll elədi. Nə cür elədi bunu, nə cür möcüzə baş verdi ki, xaricdə bu qədər düşmən qüvvələri ola-ola bunu edə bildi. Doğrudan da, bu bir möcüzədi. Görünür, iradəsiylə, ağlıyla, təşəbbüsüylə bunu bacardı. Niyə deyirəm 200 il? Çünki Türkmənçay və Gülüstan müqavilələrindən sonra ermənilər ora köçürtdülər. Düzdür, əvvəldən də ermənilər yaşayıb orda. Elə demək olmaz ki, heç vaxt olmayıblar. Olublar onlar. Amma bu qədər olmayıblar. Özləri də Marağadan köçürülən ermənilərə abidə qoymuşdular. Doğrudur, sonralar qorxub sökdülər.

Türkiyədən, əsasən də, İrandan gələndən sonra onlar başladılar özlərini qonaq kimi yox, ev yiyəsi kimi aparmağa, azərbaycanlıları sıxışdırmağa. O faktı bilirsən. Atamın şeiri də var o barədə. 3 nəfər azərbaycanlıya Stepanakertdə hökm kəsmişdilər. Həbsə aparanda maşını yandırmışdılar, onlar diri-diri yanmışdılar maşının içində. Elə faktlar da olurdu. Sonra yazırdılar ki, Babək haqqında niyə film çəkirsiz, Qaçaq Nəbi haqqında niyə çəkirsiz? Moskvaya danoslar yazırdılar. Həmin o Sero Xanzadyan atamdan nə qədər danoslar yazıb Moskvaya. Yəni hər şeyə onlar qulp qoyurdular. İstəyirdilər ki, tariximizi onların istədiyi kimi yazaq. Yazaq ki, bizim qəhrəmanımız guya Şaumyan olub, türklər isə bura işğalçı kimi gəliblər. Nuru Paşa bizim düşmənimizdi, Şaumyan dostumuzdur. Təəssüf ki, bizim tarixçilər də yazırdılar da bunu.

**- Hətta dərsliklərə salırdılar.**

- İndi də heç kəs boynuna almır ki, vaxtıyla səhv eləmişəm. Əksinə, yazıçıları axtarırlar ki, bu partiyadan yazıb, bu Stalindən yazıb, bu Lenindən yazıb. Yazıblar, təhrif eləməyiblər ki, tarixi? Siz isə təhrif eləmisiz. Boynunuza alın bunu, etiraf eləyin. İndi o nəslin tarixçiləri gedib, gənc nəslin tarixçiləri daha obyektiv qiymət veirirlər. Bütün Sovet Respublikalarında millətçilik təqib olunur. Bircə Ermənistandan başqa. Ermənistanda millətçilik türklərə qarşıdı. Bu da Sovet İttifaqının xeyrinə idi. Bu rus-türk düşmənçiliyi gəlib sovet dövrünə də çıxmışdı. Nə qədər beynəlmiləlçilikdən, dünya xalqlarının proletar birliyindən danışsalar da, türk nifrəti həmişə sovet siyasətinin mərkəzində olub. Bu nifrətin də ən yaxşı ifadəçisi erməni millətçiləri idi. Ona görə onlara meydan verilirdi. Bu 23 saatlıq antiterror əməliyyatında məsələ həll olundu. Çıxıb getdilər, özü də necə çıxıb getdilər? Birinin də burnu qanamadı. Əgər orda on nəfər ölsəydi, 100 il yazacaqdılar ki, soyqırımı oldu, milyon adam qırıldı. Görürsüz də, İsrail kimi hazırlıqlı bir dövlət nə qədər mülki əhalini qırır orda. Ermənilər özləri, Sarkisyanın da boynuna aldığı kimi, Xocalı faciəsini törətdi. Deyir, biz sübut elədik ki, biz dinc əhaliyə də divan tuta bilərik. Amma biz heç kəsə divan tutmadıq.

**- Yeni bir "Qarabağ şikəstəsi" yazmaq istəyirsiniz? Qeyd etdiniz ki, artıq zəfərimizdən sonra beşinci dəfə getmisiniz Şuşaya. Yeni bir məqalənin, yazının əslində, vaxtı çatıb.**

- Şuşa haqqında əslində qısa bir yazım da çıxıb, şeirim də var. Gələcəkdə baxarıq. Qarabağ mövzusu Azərbaycanın çox mühüm mövzusudur. Qarabağın tarixindən, bax, elə o Qarabağın Pənah xanından tutmuş, İbrahim xana qədər yazmaq lazımdır. Məsələn, Şekspirin xronikaları var: IV Genrix, V Genrix, Riçard, filan. Hətta bizdə o biri xanları da qataraq, yaratmaq olar. Amma bunun üçün Şekspir lazımdı. Şekspir Yazıçılar Birliyində yoxdu. (gülür)

**- Bəzi məsələləri dediniz artıq. Amma hər halda ümumiləşdirmək istəyirəm bu mövzunu ki, Yazıçılar Birliyinin yaxın üç ilə aid hansı planları var?**

- Ən yaxın plan 90 illiyimizi qeyd eləməkdi. Bayramdı da 90 illik... Amma bu bayram bizim üçün müsibətdir. Çünki bu bayramla əlaqədar hamı gəlir ki, mənə bir şey ver. Hamıya da fəxri ad vermək mümkün deyil, axı. İki min Yazıçılar Birliyi üzvünün hamısı Xalq yazıçısı ola bilməz, hamısı Xalq şairi ola bilməz. Hamısı Əməkdar İncəsənət xadimi olmaq, orden, medal almaq istəyir. Bu, mümkün deyil. Beşinə verirsən, on beşi inciyir. On beşi alır, əllisi inciyir. Ona görə də bu bayram bizim üçün məşəqqətdi. Həm bayramdı, həm də əziyyətdir. Bilmirsən ki, bu işin içindən necə çıxasan? Amma hər halda, qeyd eləməliyik. 90 il balaca rəqəm deyil. Yəqin mənim bayram edəcəyim sonuncu bayramdı. Yazıçılar Birliyinin 100 illiyinə mən çətin qalım. Amma 90 illiyini qeyd edəcəyik.

**- Allah sizə ömür versin, Anar müəllim.**

- Görülməli xeyli isə cari işlər var. Yenə də çalışacağıq ki, yeni əsərlərin müzakirələrini keçirək, yazıçıların yubileylərini qeyd edək. Dəyirmi masalar təşkil edək. Birini elədik, Seyran Səxavətin dil haqqında məruzəsi oldu. Birini də indi sən eləyəcəksən, dərsliklər haqqında. Belə cari işlər olacaq və davam edəcək.

**- Bəs sizin yaradıcılığınızdan nə gözləsin oxucularınız? Hal-hazırda bir neçə kitabınız çapa hazırlanır...**

- Mənim demək olar ki, hazır 5-6 kitabım var. İndi onları çap eləmək lazımdır. Söhbət ancaq onların çapından gedə bilər.

**- Anar müəllim, təbrik edirəm sizi. 90 yaşlı Yazıçılar Birliyinin son illərdə var olması, bu qədər nüfuzlu qalması, bu qədər söz sahibi olması əlbəttə ki, xeyli dərəcədə sizin adınızla, sizin zəhmətinizlə bağlıdı. Birliyin yükü sizin çiyninizdədir. Arzu edirəm ki, uzun-uzun illər yaşayasız, Yazıçılar Birliyinin 100 illiyini də qeyd eləyəsiz, inşallah. Və əlbəttə ki, ən böyük arzumuz odur ki, yeni-yeni əsərlərinizlə sevindirəsiz bizləri.**

- Çox sağ olun. Mənim də ümidim sizin kimi gənclərədir ki, gələcəkdə Yazıçılar Birliyini yaşadacaqsınız.

**P.S. "Qobustan" - 55**

Bu yaxınlarda "Qobustan"ın 55 yaşı tamam olur. Mənim vaxtımda "Qobustan" da cavan idi, mən də. O yarananda mənim 29 yaşım var idi. 17 il mən "Qobustan"ın baş redaktoru olmuşam. "Qobustan" mənim gəncliyimdi, "Qobustan" mənim balamdı, çünki dərginin əsasını mən qoydum, oranın ilk baş redaktoru mən idim və çalışdıq ki, bu dərgi digərlərindən fərqlənsin, bir az başqa cür olsun. Geniş dünyaya daha çox açılsın, dünyanı daha çox görsün. Məndən sonra da bu dərgi eyni səviyyədə davam edib. Məndən sonra Fikrət Qoca, sonra Ələkbər Salahzadə, sonra isə Vaqif Əlixanlı. Bunların hamısının "Qobustan"da böyük xidmətləri olub. Son zamanlar isə bizim gənc, çox istedadlı Pərvin xanım bu dərgini demək olar ki, təzədən dirçəldir, onu tamam yeni, maraqlı bir şəkildə təqdim edir. Məncə, "Qobustan" yenidən cavanlaşır. "Qobustan"a əbədi cavanlıq, əbədi gənclik arzu edirəm.

**"Ədəbiyyat qəzeti"**